# Elşad Həsənov: "Əsas məsələ yürüdülən siyasətə dəstək olmaqdır"

*Millət vəkili Elşad Həsənovun Adalet.az-a müsahibəsi*

**-Elşad müəllim, Milli Məclisdə təmsil olunan bitərəf millət vəkillərindənsiniz. Bu zamana kimi hər hansı siyasi partiyaya üzv olmamanızın səbəbini nə ilə əlaqələndirərdiniz?**

-Bu gün dünyada və Azərbaycanda baş verən prosesləri yaxından izləyirəm. Hər hansı siyasi partiyanın üzvü olmasam belə, cənab prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən uğurlu siyasəti bəyənir və bu siyasəti dəstəkləyirəm. İstər iqtisadi, istərsə də beynəlxalq müstəvidə qazanılan nailiyyətlər ölkəmizin gələcək perspektivindən xəbər verir. Güman yox ki, ölkəmiz bu siyasətlə ümummilli lider Heydər Əliyevin dediyi kimi "Azərbaycan Dünyaya günəş kimi doğacaq". İndiki məqamda şərt hansısa siyasi partiya mənsubiyyətinin olması deyil. Əsas məsələ dövlətə və dövlətçiliyə, yürüdülən siyasətə dəstək olmaqdır. Mən də bu istiqamətdə öz öhdəmə düşən işləri layiqincə görürəm.

**-Yeri gəlmişkən, təmsil olunduğunuz dairədə ən yüksək səs toplamısınız. Belə bir nəticəni gözləyirdinizmi?**

- Yasamal rayonu ərazisində böyüyüb boya-başa çatmışam. Ərazini yaxşı tanıyıram. Eyni zamanda vətəndaşlar da məni yaxşı tanıyır. Hələ 2005, 2010-cu illərdə 17 Saylı Yasamal 3-cü Seçki Dairəsindən namizəd olanda uğurlu seçki marafonu həyata keçirdik. 2010-cu ildə seçkini ikinci tamamlamışdım. Əslində bu seçki mənim üçün bir hazırlıq idi. Həyatım boyu gərgin işlərin öhdəsindən gəlməyi xoşlamışam. Buna cəhd etmişəm. Son parlament seçkilərində seçicilər mənə etibar göstərdilər və mən rəqiblərimi qabaqlaya bildim. Bu 5 ildə seçicilərimin mənə olan inamını doğruldacam. Milli Məclisdə, eləcə də aidiyyəti qurumlar qarşısında seçicilərimin problemlərini qaldıracaq və onların həlli istiqamətində davamlı addımlar atacağam.

**-Elşad Həsənovun seçicilərinin nə kimi problemi var?**

-Bu gün Azərbaycan Respublikası uğurlu inkişaf yolundadır. Artıq bir sıra beynəlxalq təşkilatların hesabatlarında ölkəmizin nüfuzu möhkəmlənir. Həyata keçirilən islahatlar yüksək qiymətləndirilir. Bu işlər nəinki beynəlxalq təşkilatlarda, eyni zamanda ölkə vətəndaşları arasında da müsbət dəyərləndirilir. Məhz görülən işlərin bariz nümunəsidir ki, vətəndaşlarımız ölkə başçısı İlham Əliyevin ətrafında sıx birləşib. Cənab prezidentin həyata keçirdiyi siyasətə dəstək olurlar. Bu gün dünya miqyasında gedən proseslərin ölkəmizə təsiri bir sıra problemləri ortaya qoyur. İşsizlik, bir sıra sosial problemlər və s. Heç də demək olmaz ki, Yasamal rayonunda problem yoxdur. Problemlər var. Ancaq bu problemlər elə də ciddi xarakter daşımır. Seçki qərargahıma edilən müraciətləri araşdırarkən məlum olur ki, vətəndaşların ən çox əziyyət çəkdiyi sahələrdən biri məşğulluq problemidir. Bu problemin aradan qaldırılması üçün aidiyyəti qurumlarla danışıqlar aparırıq.



Eyni zamanda, bildiyiniz kimi Yasamal Rayonunda bir sıra ərazilər var idi ki, həmin ərazilər plana düşür. O ərazilərdə yaşayan sakinlərin normal evlərlə, kompensasiyalarla təmin olunması yönündə ciddi iş aparılır. Biz istəyirik ki, bu prosesdə heç kim incik düşməsin. Çünki atdığımız addımlar Azərbaycan dövlətinin və dövlətçiliyimizin inkişaf üçün zəruri olan addımlardır. Həm vətəndaşlar, həm də dövlət qurumları bu istiqamətdə bütün səylərini birləşdirib ümumi işə töhfə verməlidirlər.

**-Məşhur idmançıların da sizə dəstəyi oldu, bu barədə nə deyə bilərsiniz?**

-Bu gün Azərbaycanda idmanın inkişafı üçün çox mühüm işlər görülür idman arenaları tikilib istifadəyə verilir, gənclərin asudə vaxtlarını səmərəli keçirməsi, idmana daha da maraq göstərməsi üçün istər Bakıda, istərsə də regionlarda komplekslər tikilib. Bu işlər bu gün də uğurla davam etdirilir. Bir sıra idmançı dostlarım var. Onlarla mütəmadi olaraq bu yöndə söhbətlərimiz, müzakirələrimiz olur. İdmançılar dövlət başçısı İlham Əliyev tərəfindən həyata keçirilən idman siyasətini dəstəkləyirlər. Seçki öncəsi də Azərbaycanın tanınmış idmançıları mənə dəstək oldular. Bundan başqa bir sıra idmançı dostlarım var idi ki, onlar qiyabi də olsa dəstəyini əsirgəmədilər. Mən də bu fürsətdən istifadə edib onlara çox sağ ol deyirəm.

**-İxtisasca hüquqşünassınız. Azərbaycanda mövcud hüquqi bazanı necə qiymətləndirirsiniz?**

-Mən deyərdim ki, Azərbaycanda olan mövcud hüquqi baza daha təkmil, dolğun və eyni zamanda əhatəlidir. Demək olar ki, bütün sahələr üzrə hüquqi normativ aktlar qəbul olunub. Milli Məclisdə kifayət qədər savadlı, ixtisaslaşmış həmkarlarım var. Hər bir qanunda xırda incəliklər nəzərə alınır. 5-ci çağırış Milli Məclisdə də bu yöndə işlərin uğurla davam etdiriləcəyinə əminəm.

**Ədil Ədilzadə**